

# Samuxun qış qayğıları

Qərb regionunun qabaqcıl aqrar rayonlarından olan Samuxda da, aparılan abadlıq-quruculuq işləri, infrastrukturların yenilənməsi, vətəndaşlara keyfiyyətli xidmətin yaxşılaşması, rifah halının yüksəlişi göz qabağındadır. Onu xüsusilə qeyd etmək yerinə düşərdi ki, rayonda məskunlaşmış Orta Asiya respublikalarından olan qaçqınların mənzil şəraitinin yaxşılaşdırılması ilə bağlı rayon icra hakimiyyəti tərəfindən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə edilən müraciətin nəticəsi olaraq, hazırda Lək, Əlibayramlı və Çobanabdallı kəndlərində 26 ailə üçün fərdi mənzil inşa edilir. Onlardan 10-u tam hazırdır, qalanları isə yaxın vaxtlarda istifadəyə veriləcəkdir. Bu bir daha qaçqınlara dövlət başçısının diqqət və qayğısının bariz nümunəsidir. Samuxda, ümumiyyətlə, əhaliyə göstərilən sosial xidmətlərin yüksək səviyyədə olması prioritet məsələlərdəndir. Yenidən yüksək zövqlə qurulmuş geniş parklar, xiyabanlar sakinlərin asudə vaxtlarında istirahətinə, körpələrin əyləncələrinə böyük önəm verir. Hər yerdə səliqə-sahman, qışın oğlan çağında yaşıllıq arasında boylanan gül-çiçəklər xüsusi gözəllik verir, ürəkləri riqqətə gətirir. Bu mövcud şəraitin saxlanmasında rayon mənzil kommunal təsərrüfat istehsalat birliyinin əməyi əvəz edilməzdir. Belə ki, ümumən rayon mənzil kommunal təsərrüfat istehsalat birliyi–əhalinin mənzil-kommunal xidmətlərinə tələbatın daha tam ödənilməsi məqsədilə mənzil-kommunal təsərrüfatının təkmilləşdirilməsi, balansında olan mənzil-kommunal sahələrinə rəhbərlik, kommunal təyinatlı obyektlərin istismar səviyyəsinin yüksəldilməsi, abadlaşdırılması, onların qorunması sahəsində tədbirlər görülməsi, şəhərin sanitariya vəziyyətinin normal səviyyədə saxlanılması, qeyri-yaşayış sahələrindən təyinatı üzrə səmərəli istifadə edilməsinin təmin edilməsi, əsaslı tikinti və təmir sahəsində rayon icra hakimiyyəti tərəfindən verilmiş səlahiyyətlər dairəsində abadlıq, tikinti, habelə kommunal təyinatlı obyektlərin əsaslı təmiri, modernləşdirilməsi və qurulması, şəhər yollarının istismarı və cari təmiri, xiyabanların və qəbiristanlıq təsərrüfatının saxlanması və abadlığı, xidmət sahələrinin inventarlarla təchizatının təmin edilməsi, fəvvarələrin istismarı və təmiri ilə bağlı digər funksiyaları həyata keçirir. **Rayon mənzil kommunal təsərrüfatı istehsalat birliyinin rəisi Mahir Əliyevlə** payız-qış aylarında həmişəki kimi, təbiətin şıltaqlığı, güclü küləyin təsirindən dağılmış kol-koslaların, qırılmış ağac budaqlarının, sarı payız xəzanların tez bir zamanda təmizlənməsi üçün görülən, qızğın iş şəraitində görüşdük. O, bildirdi ki, Samux rayonunda İstehsalat birliyi qış mövsümü ilə əlaqədar təsdiq olunmuş tədbirlər planına uyğun olaraq, gücləndirilmiş iş rejiminə keçmişdir. Həm xidmət maşınları, həm də işçi personalı üçün növbətçilik qrafiki hazırlanmışdır ki, buna çox ciddi riayət olunur. Mövsümlə əlaqədar birlik tərəfindən mövcud yaşayış binalarının istilik xətlərində 300 metr cari təmir işləri aparılıb və 44 yaşayış binasından işləməyən 2 yaşayış binasının istiliklə təminatı hazır vəziyyətə gətirilib. Qeyri-sabit hava şəraitini nəzərə alaraq park və yol kənarlarındakı işıq dirəklərində cari təmir-bərkitmə işləri aparılmış, qarlı və buzlu hava şəraiti üçün lazımi qədər duz və qum ehtiyatı yaradılmış, birliyin istifadəsində olan 9 ədəd maşın və mexanizimlər təmir edilərək, tam hazır vəziyyətə gətirilmişdir. Qabaqlayıcı tədbirlər timsalında mexanizmlərin təhlükəsiz hərəkətlərinin təmin olunması üçün ən vacib olan qoruyucu zəncirlər alınmışdır. Eyni zamanda sel sularının qarşısını almaq üçün mühafizə kanalları və ötürücülər lillərdən təmizlənmiş, hazır vəziyyətə gətirilmişdir.



Birlik, məişət tullantılarının vaxtında və səmərəli təmizlənməsi qrafikini qış rejiminə uyğun olaraq həyata keçirir. Belə ki, hər gün dislokasiyaya uyğun məişət tullantıları operativ surətdə, müəyyən edilmiş bəzi ərazilər əl ilə, bəzi küçələr isə mövcud texnikanın köməyi ilə süpürülərək, təmizlənir. Vaxtaşırı mərkəzi küçə və prospektlər mövcud avtomaşınlarla yuyulur. Qış mövsümünü nəzərə alaraq, zibil qutularının sayı 90 ədəddən 115 ədədə çatdırılmış, tullantıların qəbulu üçün xüsusi olaraq 6 yer yaradılmışdır.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

